# Birlikdə daha güclüyük




***Türkiyə son illər ərzində böyük və şərəfli yol keçmiş, dünya miqyasında güc mərkəzinə çevrilmiş və təkcə bölgədə yox, dünya miqyasında söz sahibinə çevrilmişdir... Türkiyənin gücünü ... indi dünyada bilməyən yoxdur və əziz Qardaşımın liderliyi sayəsində Türkiyənin inkişafı, Türkiyədə sabitliyin təmin olunması bütün türk dünyası üçün önəmli şərtdir. Çünki türk dünyasının mərkəzində dayanan güclü Türkiyə dövlətidir. Bizə, hər birimizə əlavə güc verən Türkiyənin güclənməsidir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***
***İstanbul, 12 noyabr 2021-ci il***

***Noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmiz, xalqımız və xüsusən, dövlət başçımız İlham Əliyevin ünvanına səsləndirdiyi yüksək qiymətləndirmələr türk dünyasını sevənlərə könülxoşluğu gətirdisə, bədxahlarımıza da aydın şəkildə başa düşülən xəbərdarlıq oldu. Ancaq mən həmin tədbirdən hazırlanmış televiziya materialına tamaşa edərkən, müasir dünyanın ən tanınmış diplomatlarından olan Mövlud Çavuşoğlunun Azərbaycan Prezidentinə xitabən dediyi : "Biz bir-birimizi dəstəkləməyi Sizdən öyrəndik, öyrənirik" – fikrini xatırladım.***

Yadımdadır, Azərbaycan Prezidenti İlham Əliyev ötən il fevralın 5-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən pandemiya səbəbindən Çindən azərbaycanlıların Türkiyə təyyarəsi ilə təxliyyə edilməsinə görə təşəkkür etmişdi. Çavuşoğlu isə böyük səmimiyyətlə demişdi ki, bizə təşəkkür etməyinizə ehtiyac yoxdur: "Biz bir-birimizi dəstəkləməyi Sizdən öyrəndik, öyrənirik. Sizin "Türkiyə burada yoxdur, amma mən varam, biz varıq" sözlərinizi heç bir türk, Türkiyə Cümhuriyyəti vətəndaşı unuda bilməz. Sizin liderliyinizlə bütün bu çətinliklərə qarşı işbirliyimizi, əməkdaşlığımızı davam etdirəcəyik və Sizin liderliyinizlə Türkiyəni və Azərbaycanı, inşallah, hədəflərinə çatdıracağıq. İkili standartlarla, bizə bu cür mövqe nümayiş etdirənlərə qarşı biz də mübarizəmizi, inşallah, birlikdə davam etdirəcəyik. Hər zaman söylədiyimiz kimi, Türkiyənin olduğu qədər Azərbaycanın haqqını və haqlı mübarizəsini də müdafiə etmək bizim üçün vəzifədir".

... Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Rəqəmsal dövrdə yaşıl texnologiyalar və ağıllı şəhərlər" mövzusuna həsr olunmuş Zirvə görüşündə türk dünyasının uğurları barədə danışarkən öz sözlərinə məhz Prezident İlham Əliyevin uğurları ilə başlaması olduqca diqqətçəkən məqam idi: "Ağıllı şəhərləşmə sahəsində işğaldan azad edilən Zəngilanda başladılan təşəbbüs, Türkistanın inkişafı, Ahaldakı intensiv fəaliyyətlər, Budapeştdə görülən işlər, Qırğızıstanda və Özbəkistandakı fəaliyyətlər təqdirəlayiqdir".

Türkiyə mətbuatında verilən çoxsaylı xəbər və analitik materiallarda qeyd edilir ki, Prezident İlham Əliyevin İstanbuldakı çıxışı onun 44 günlük müharibə dövründə dünya mətbuatının nüfuzlu təmsilçilərinə verdiyi müsahibələrin və xalqa müraciətlərinin sırasında dayanmağa layiq bir çıxış idi. Şərhlərdən birində qeyd edilir ki, İlham Əliyevin təkcə Azərbaycan və azərbaycanlılar üçün deyil, bütün türk dövlətləri və türk xalqları üçün çalışdığı göz qabağındadır.

Doğrudan da, dövlət başçımızın İstanbuldakı çıxışı türk dünyasının uğurlarının sadalanması və bədxahlarımıza sülh çağırışları səsləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edirdi. Prezident xüsusilə vurğuladı ki, TDƏŞ-in Türk Dövlətləri Təşkilatına çevrilməsindən sonrakı ilk iki ildə bu quruma Rəcəb Tayyib Ərdoğan kimi böyük siyasətçinin sədrlik etməsi bizim gələcək uğurlarımızdan xəbər verir: "Bu şərəfli missiyanı –Türk Şurasındakı və bundan sonra Türk Dövlətləri Təşkilatındakı sədrlik müddətini artıq əziz qardaşım Rəcəb Tayyib Ərdoğan öz üzərinə götürür. Əminəm ki, onun liderliyi ilə bizim ölkələrimiz arasındakı birlik, həmrəylik, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulmuş əlaqələr daha da möhkəmlənəcək və türk dünyasının lideri olan hörmətli Cümhurbaşqanının bu işdə uğur qazanacağına heç şübhəm yoxdur. Çünki onun siyasəti və liderliyi sayəsində Türkiyə son illər ərzində böyük və şərəfli yol keçmiş, dünya miqyasında güc mərkəzinə çevrilmiş və təkcə bölgədə yox, dünya miqyasında söz sahibinə çevrilmişdir".

Azərbaycan oxucusu, sadə vətəndaş və ümumiyyətlə, hamımız yaxşı bilirik ki, Prezident İlham Əliyev bütün fəaliyyəti dövründə nikbin düşünməyin, nikbin danışmağın ən ali nümunəsini yaratmışdır. Məhz elə həmin nikbinliyinə görə də qarşıya qoyduğu bütün məqsədlərinə nail ola bilir. Dövlət başçımız İstanbulda, türk dövlətlərinin gələcək işbirliyi barədə danışarkən də möhtəşəm nikbinlik nümayiş etdirmişdir: "Mən çox şadam ki, bu gün biz türk dövlətləri arasındakı birlikdən danışarkən gələcəyə baxırıq. Çünki bizim gələcəyimiz, birgə gələcəyimiz üçün çox möhkəm zəmin var, möhkəm təməl var. Bu, bizim ortaq köklərimizdir, dilimizdir, dinimizdir və ortaq maraqlarımızdır".

Ancaq Azərbaycan Prezidenti bu birliyin gələcəyinə nikbin baxmaqla kifayətlənmədi, bu istiqamətdə mühüm addımların atılması ilə də nümunə göstərdi: "Azərbaycan ikiillik sədrlik dönəmində türk dünyasının birləşməsi üçün böyük səylər göstərmişdir. Bir çox tədbirlər keçirilmişdir... Son iki il ərzində önəmli hadisələrdən biri Türkmənistanın bizim təşkilata müşahidəçi qismində qoşulmasıdır. Bu da təbiidir və mən böyük məmnuniyyətlə bu haqda bu gün hələ ki, təşkilata sədrlik edən şəxs kimi deyirəm. Bizim türkmən qardaşlarımızı da ürəkdən salamlayırıq və bu, çox önəmli addımdır. Eyni zamanda, Bakı Zirvəsində Özbəkistan bizim Şuraya üzv oldu, bu da çox önəmli hadisədir. Mən xatırlayıram, 2009-cu ildə Naxçıvan Zirvə görüşündə o vaxt Naxçıvan sazişi imzalanmışdı. Onu dörd lider imzalamışdı. Amma bu gün bizim sayımız 7-yə çatıb. Bu, onu göstərir ki, bizim təşkilatımız çox cəlbedicidir və əminəm ki, hər bir üzv və hər bir müşahidəçi bundan sonra da bir nöqtəyə vuraraq bizim gücümüzü artıracaqdır".

İlham Əliyev İstanbuldakı çıxışında bir daha dünya ictimaiyyətinin nəzərinə çatdırdı ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası üçün apardığı 44 günlük ədalətli mübarizəsində Türkiyənin dəstəyini daim görmüşdür. Prezident xatırlatdı ki, biz, təxminən, 30 illik işğala son qoyduq. Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildə qəbul etdiyi və kağız üzərində qaldığı qətnamələri yerinə yetirdik, icra etdik. Tarixi ədaləti bərpa etdik, beynəlxalq hüququ bərpa etdik, milli ləyaqətimizi bərpa etdik. Bu Zəfər tarixi əhəmiyyət daşıyır. Çünki bu, ədalətli müharibə idi. Biz öz torpağımızda vuruşurduq, qan tökürdük, şəhidlər verirdik.

Bütün bu faktları xatırladan Azərbaycan Prezidenti əlavə etdi ki, əziz qardaşım, hörmətli Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara iki dəfə səfər edib. İyun ayında Şuşaya və bu yaxınlarda – oktyabr ayında Füzuli və Zəngilana səfər edərkən bunu əyani şəkildə görüb: "Bu bölgələrin – Şərqi Zəngəzur və Qarabağ bölgələrinin bərpası üçün bu gün bizə ən çox dəstək verən yenə də qardaş Türkiyəmizdir. Türkiyənin bir çox şirkətləri bu gün bizim üçün çox önəmli infrastruktur layihələrində çalışırlar, – körpülər, tunellər, yollar, dəmiryolları, elektrik stansiyaları, hava limanları, – bütün bu işlərdə fəal iştirak edirlər. Hörmətli Cümhurbaşqanı ilə birlikdə bu yaxınlarda açdığımız Füzuli Hava Limanının inşasında Azərbaycan şirkətləri ilə bərabər, 12 türk şirkəti iştirak etmişdir. Hesab edirəm, məhz buna görə biz rekord müddət ərzində, cəmi 8 ay ərzində inşa edə bildik. Hazırda Türkiyə şirkətləri, eyni zamanda, Zəngilan Hava Limanının inşasında iştirak edirlər və bizim digər layihələrimizdə iştirak edəcəklər".

İlham Əliyevin böyüklüyü ondadır ki, Azərbaycana qarşı hər cür vəhşilikləri törətmiş, Xocalı soyqırımı ilə fəxr edən ermənilərin də nə zamansa doğru yola qayıdacağına inanır: "Ümid edirəm ki, yaxın gələcəkdə Ermənistanın həm Türkiyəyə, həm Azərbaycana ərazi iddialarına son qoyulacaq". Amma, dövlət başçımız ənənəvi qətiyyətini də xatırladır: "Əks təqdirdə onlar daha da pis duruma düşə bilərlər. Zəngəzur koridoru isə həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir və bu gün bu layihənin gerçəkləşməsi istiqamətində fəal işlər gedir".

Dövlət başçımız məlum çıxışını inamla, ümidlə başa çatdırdığına görə biz də bu sətirləri ulu öndər Heydər Əliyevin məşhur kəlamlarından biri ilə tamamlayırıq: "Siyasətçinin əsas silahlarından biri də səbr, təmkin, inam və nikbinlikdir". Sevinirik ki, bu keyfiyyətlər dövlətimizin başçısında var.

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***